2024

ASA AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten
# AVQUST

## Azərbaycanda növbəti “Sığorta Festivalı”na start verildi

Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı çərçivəsində Azərbaycanda sayca ikinci “Sığorta Festivalı”na start verildi.

2021-ci ildən ölkə əhalisinin sığorta savadlılığının artırılması məqsədilə həyata keçirilən genişmiqyaslı maarifləndirmə layihəsi çərçivəsində çoxşaxəli tədbirlər davam etdirilir. Bu tədbirlərdən biri də ölkəmizdə ikinci dəfə keçiriləcək “Sığorta Festivalı” layihəsidir.

Festivala 17 avqust tarixdə Bakı şəhərində Dənizkənarı Milli Park ərazisində start verilildi və avqust ayı ərzində Sumqayıt və Lənkəran şəhərlərində keçirildi.

Tədbir ölkədə fəaliyyət göstərən sığorta şirkətlərinin iştirakı ilə təşkil olundu. Festival çərçivəsində sığorta maarifləndirməsi prosesi əyləncəli şoular, musiqili proqramlar və hədiyyəli yarışmaların müşayiətilə aparıldı.

Layihənin məqsədi geniş əhali qruplarının və biznes nümayəndələrinin sığorta sahəsində bilik və təsəvvürlərinin artırılması və onların sığorta xidmətlərinə cəlb olunmasının təşviq edilməsindən ibarətdir.








## Türkiyədə sığorta şirkəti təsis etmək üçün yeni kapital normaları müəyyənləşdi



Türkiyənin Sığorta və Fərdi Pensiya Tənzimləmə və Nəzarət Qurumu (SEDDK), sığorta şirkətləri üçün təsis kapitalı məbləğini yenidən formalaşdırıb. Belə ki, yeni qaydalara əsasən, lisenziya tələb olunan növlərə görə, minimum təsis kapitalı ən az 500 milyon TL (14.6 milyon dollar) olaraq müəyyənləşib. Fərdi pensiya növü üzrə isə minimum kapital məbləği 1 milyard TL (29.2 milyon dolar) olarak yenilənib.

SEDDK həmçinin lisenziya müraciətindən əvvəl ödənilmiş kapitalın valyuta şəkildə ödənilməsini əsas tələb olaraq müəyyənləşdirib.

Yeni qaydalara əsasən, şirkətin sığorta sahəsində bütün növlər üzrə fəaliyyət göstərə bilməyi üçün lazımi ümumi kapital məbləği 3 milyard 350 milyon TL (97.9 milyon dollar) olaraq müəyyən edilib. Həyat sığortaçılığı üçün bu məbləğ 1 milyar 925 milyon TL (56.2 milyon dollar) olaraq təyin edilib. Təkrarsığorta xidməti üçün zəruri lisenziyalara görə bu kapital məbləği qeyri-həyat növləri üzrə 1 milyar TL (29.2 milyon dollar), həyat növləri üzrə də 1 milyar TL olmaqla ümumilikdə 2 milyar 125 milyon TL (62.1 milyon dollar) kapital şərti təyin olunub.

## Fitch Avropa sığorta bazarı ilə bağlı 2025-ci il üzrə proqnozunu açıqladı

Fitch-in məlumatına görə, Avropanın qeyri-həyat sığorta şirkətləri yüksək inflyasiya və təkrarsığorta xərclərini kompensasiya etmək üçün 2024-cü ildə tarifləri artırıb. Agentliyin şərhinə görə, sığorta tariflərindəki bu artımın tam effekti, o cümlədən inflyasiyanın yumşalması və sabit gəlirli qiymətli kağızların gəlirliliyinin artması Avropa sığortaçılarının hesabatlarında 2025-ci ildə öz müsbət əksini tapacaq.



## "A-Qroup Sığorta Şirkəti" ASC



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***4997.5 AZN***



## "Azərbaycan Sənaye Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***14 992 AZN***

## "Bakı Sığorta" ASC



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***10 800 AZN***



## "Xalq Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***38 223.75 AZN***



## "İpək Yolu Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***1 960 AZN***



## "Qala Həyat" Sığorta Şirkəti ASC

*Sığorta növü: İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi sığortası*
*Sığorta hadisəsi: Ölüm halı*
*Sığorta məbləği:* ***5 321.21 AZN***

## "Qala Sığorta" ASC



*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***29 002 AZN***



## "Meqa Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***40 842 AZN***

## "Qala Sığorta" ASC-nin baş sponsorluğu ilə Şamaxıda 10-11 Avqust tarixlərində AstroCamp - ASAN könüllülərinin kosmosa səyahəti" düşərgəsi həyata keçirilib.






Tədbir zamanı iştirakçılar tərəfindən professional teleskoplarla ulduzlar, planetlər, dumanlıqlar müşahidə edilib, ayın teleskoplarla və böyük ekranda izlənilməsi baş tutub.

Gecə boyu Qala Sığorta əməkdaşlarının da iştirak etdiyi mini seminarlar, açıq havada əyləncəli intellektual oyunlar və ustad dərsləri həyata keçirilib.

"Qala Sığorta" ASC-nin sponsorluğu ilə Bakıda 26-29 Avqust tarixlərində “SALAM” Beynəlxalq Yeniyetmə Film Festivalı həyata keçirilib.

Festivalda 13 ölkədən 600-dən çox yeniyetmə professional filmləri izləmək və onların yaradıcıları ilə görüşmək və hətta, öz qısametrajlı filmlərini yaratmaq imkanı əldə ediblər.

AZƏRBAYCAN
**SIĞORTAÇILAR**
ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: Mikayıl Useynov 63
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az